https://doi.org/10.59849/3006-1342.2025.1.107
UOT 902

*Jalə Əbülfət qızı Əhmədova*
*AMEA Gəncə Bölməsi*
*Gəncə ş., Heydər Əliyev pr. 419*
*E-mail: jaleehmedova340@gmail.com*
*https://orcid.org/0009-0001-4226-6064*

# QAZAX RAYONUNDA ZƏRGƏRLİK SƏNƏTİNİN İNKİŞAF TARİXİNƏ DAİR

*Azərbaycanda zərgərlik sənəti qədim dövrlərdən başlayaraq inkişaf etmiş və xalqın mədəni irsində mühüm yer tutmuşdur. Bu sənət yalnız bəzək əşyalarının hazırlanması ilə deyil, həm də xalqın estetik duyğularını, həyat tərzini və dünyagörüşünü əks etdirən sənət nümunələri ilə seçilir. Azərbaycanda zərgərlik sənətinin mənşəyi eramızdan əvvəl XI-XII əsrlərə bağlanır. Zərgərlik sənəti tarixən Azərbaycanın Bakı, Gəncə, Qazax, Şirvan, Şəki və Naxçıvan kimi şəhərlərində geniş yayılmışdır. Qazaxda zərgərlik ənənəsi qədim zamanlardan inkişaf etmiş və zəngin mədəni irs yaratmışdır. Qafqaz Albaniyası dövründən etibarən bu region metal emalı və zərgərlik işləri ilə tanınmışdır. Burada müxtəlif mədəniyyətlərin və sənətkarlıq üslublarının sintezi yaranmışdır. Qazax rayonu, qədim Sarıtəpə və Babadərviş yaşayış yerlərindən aşkar edilən zərgərlik əşyaları, xüsusilə tuncdan və yarıqiymətli daşlardan hazırlanmış bəzək əşyaları, bu sənətin qədim tarixini əks etdirir. Sarıtəpə yaşayış yerində tapılan heyvan başlıqlı tunc qolbaqlar zərgərlik sənətinin nə qədər inkişaf etdiyini göstərən nümunələrdir. Eyni zamanda, Babadərviş yaşayış yerində tapılan müxtəlif bəzək əşyaları və tuncdan hazırlanan bəzəklər bu bölgənin zəngin zərgərlik ənənələrini ortaya qoyur.*

*Açar sözlər:* Qazax rayonu, dekorativ-tətbiqi sənət, zərgərlik sənəti, tunc bilərziklər, kəmərlər

## *Giriş*

Azərbaycanda zərgərlik sənəti minilliklər ərzində təkamül yolu keçmişdir. Əsasən özünün bəzək elementləri, detalların incə, özünəməxsus ornamental formaları ilə diqqət çəkən müxtəlif məmulatlar sadəcə bəzək əşyası kimi deyil, həm də qeyri-adi sənət nümunələri kimi diqqət mərkəzində olmuşdur. Ən sadə hazırlanma texnikasından mürəkkəb texnikaya qədər gəlib çıxan zərgərlik məmulatlarının uzun və maraqlı bir keçmişi vardır. Bahalı materiallardan hazırlanan çoxsaylı bəzək əşyalarının bizim eradan əvvəl XI-XII əsrə məxsus olması Azərbaycanda dekorativ-tətbiqi sənətin böyük inkişaf yolu keçməsindən xəbər verir. Bizim dövrümüzə qədər gəlib çıxan zərgərlik əşyalarını təhlil edərkən o dövrün ustalarının nə qədər zərif və zövqlə işlədiklərinin şahidi oluruq [9, s-95-99].

Azərbaycanın zərgərlik mədəniyyətinin inkişaf səviyyəsini araşdırmaqda Manna incəsənətinin nümunələri mühüm rol oynayır. Urmiya gölünün cənub-şərqində yerləşən Ziviyə bölgəsindən tapılmış, e.ə. VIII-VII əsrlərə aid “Ziviyə dəfinəsi”ndə yer alan şir başları ilə bəzədilmiş qızıl bilərzik, təsvirli qızıl kəmər, qızıl sinəbənd və digər əşyalar həmin dövrdə bəzək elementlərinin geniş istifadə edildiyini sübut edir [7, s.46-47, 51-53; 7,s.63-64]. Eramızın IV-VI əsrlərinə aid edilən və Alban incəsənətinin ən gözəl nümunələrindən biri hesab olunan tunc gül qabı üzərindəki atlı təsviri, kişilərin də bəzək əşyalarından geniş istifadə etdiyini sübut edir. Vaxtilə arxeoloji qazıntılar zamanı tapılan və hazırda Sankt-Peterburqdakı Dövlət Ermitajında saxlanılan bu qab üzərindəki atlının Alban hökmdarı Cavanşiri təsvir etdiyi düşünülür. Onun başında tac, belində qiymətli kəmər, qolunda qolbaq

və qulağında sırğa görünür [5, s.3]. Arxeoloq Q.Əhmədov alban tarixçisi Musa Kalankatukluya əsaslanaraq göstərir ki, Cavanşirin başındakı tac, qulağındakı sırğa və əynindəki gözəl paltar vaxtilə ona Sasani hökmdarları tərəfindən bəxş edilmişdir [2, s.37].

*Əsas hissə.* Qazax rayonu Azərbaycanın zəngin sənətkarlıq ənənələrindən biri kimi zərgərlik sənətinə böyük töhfələr vermiş bölgələrdəndir. Aparılan araşdırmalardan məlum olur ki, Qafqaz Albaniyasının orta əsr sənətkarlıq mərkəzlərində (Qəbələ, Mingəçevir, Bakı, Gəncə, Şamaxı, Naxçıvan, Beyləqan, Şabran və s.) o cümlədən, Qazaxda digər sənət sahələri ilə yanaşı, bəzək-zinət əşyalarının istehsalı da yüksək səviyyədə inkişaf etmişdir. Bu sənət bölgədə qədim zamanlardan inkişaf etmiş və zəngin mədəni irs yaratmışdır. Qafqaz Albaniyası dövründən etibarən rayon metal emalı və zərgərlik işləri ilə məşhur olmuşdur. Bölgə qədim ticarət yolları üzərində yerləşdiyi üçün burada müxtəlif mədəniyyətlərin və sənətkarlıq üslublarının sintezi yaranmışdır. Qazax zərgərləri əsasən gümüş, qızıl, mis və digər qiymətli metallarla işləyərək zinət əşyaları, bəzək əşyaları və məişət avadanlıqları hazırlamışlar. Qazax zərgərlik sənəti özünəməxsus incə işləmə texnikaları olan filigran (incə metal naqillərin bir-birinə hörülərək bəzək əşyası formasına salınması), naxış işləri (milli ornamentlər və bitki motivlərinin metal üzərinə işlənməsi), daş qoşma texnikası (firuzə, yaqut və əqiq kimi qiymətli daşlarla bəzədilmiş zinət əşyaları) ilə seçilir.

Azərbaycanda aşkar edilmiş Son Tunc və Erkən Dəmir dövrünə aid bəzək əşyaları funksiyalarına görə bir neçə qrupa ayrılır. Bu əşyalar baş, boyun, sinə, bel, qol və ayaq üçün nəzərdə tutulmuş bəzəklərdən ibarətdir. Baş bəzəkləri arasında sırğalar da diqqət çəkir. Onlar formalarına əsasən iki əsas qrupa ayrılır: halqaşəkilli, şar və konusvari sırğalar. Dairəvi sırğaların bir ucu tam dairə şəklində içəriyə doğru əyilərək, çevrə boyunca dalğavari formada davam etdirilmişdir. Bu sırğalarda bir ucu yayşəkilli, digəri isə düz və ya qarmaq şəklində qatlanmış olur. Tunc halqaya keçirilmiş şar və konusvari sırğaların içi boş, üzəri şəbəkəli nəqşlərlə bəzədilmiş olur. Qazax rayonunda belə sırğaların zəncir qalıqları ilə birlikdə tapılması onların həm sırğa, həm də asma bəzək əşyası kimi istifadə edildiyini göstərir [4, s.82].

Qazax rayonu ərazisində tədqiq edilmiş Sarıtəpə və Babadərviş yaşayış yerlərindən mürəkkəb quruluşlu yerüstü binalar üzə çıxarılmışdır. Buradan tapılan bəzək əşyaları əsasən, tuncdan, sürmədən və yarıqiymətli daşlardan hazırlanmışdı. Geniş yayılmış bəzək əşyalar nahamar səthli bütöv tuncdan tökmə qolbaqlar idi. Asma və üzüklər tuncdan hazırlanırdı. Onlar metal boyunbağılarla birlikdə istifadə olunurdu.

Qazax rayonunun cənub-şərqində yerləşən qədim Sarıtəpə yaşayış yeri 1956-cı ildə İ.H.Nərimanov tərəfindən tədqiq olunmağa başlamışdır. Aşkar edilmiş arxeoloji materiallardan əhalinin məşğuliyyəti və həyat tərzi haqqında mühüm məlumatlar əldə olunmuşdur. Sarıtəpə yaşayış yerindəki binalar uzunsov və dördkünc formalıdır. Arxeoloji tədqiqatlar zamanı Xocalı-Gədəbəy mədəniyyətinə aid tunc bəzək əşyaları, dairəvi və düzbucaqlı gil möhürlər, iri təsərrüfat küpləri, üzəri cızma naxışlı məişət qabları tapılmışdır. Yaşayış yerində tapılan heyvan başlıqlı tunc qolbaqlar xüsusi diqqət çəkir və bu, zərgərlik sənətinin qədim tarixini özündə əks etdirir.

Babadərviş yaşayış yeri, Qazax şəhərindən 2 km qərbdə, Ağstafaçayın sol sahilində yerləşir. Abidənin üst mədəni təbəqəsi, Xocalı-Gədəbəy mədəniyyəti ilə əlaqəli olan arxeoloji materiallar təqdim etmişdir. Aşkar edilən arxeoloji komplekslər dördkünc formalı evlər, təsərrüfat quyuları, küplər, müxtəlif məişət əşyaları, gil möhürlər, manqallar, tuncdan ox ucluqları, öküz heykəlciyi və dəmir məmulatı kimi maddi-mədəniyyət nümunələri ilə zəngindir. Babadərviş qəbirləri barədə isə IV yaşayış yerində Son Tunc və Erkən Dəmir dövrünə aid dörd qəbir tədqiq edilmişdir. Bu qəbirlərdən aşkar olunan tunc bilərziklər qədim zərgərlik sənətinin bariz nümunəsidir [1, s.200-201].

Qədim dövr sənət abidələrimiz arasında tuncdan hazırlanmış kəmərlər öz bədii dəyəri və sənətkarlıq baxımından xüsusi diqqət çəkir. Qarabağ, Qazax, Gədəbəy və digər bölgələrdən aşkar edilən bu tunc kəmərlər üzərindəki təsvir və naxışlar tamaşaçıda dərin təsir oyadır. Xüsusilə, Qazax bölgəsindən tapılmış e.ə. I minilliyə aid tunc kəmər üzərindəki incə təsvirlərlə seçilir. Bu kəmərdəki kompozisiyada təsvirlər nisbətən sərbəst şəkildə yerləşdirilmiş qurda bənzər vəhşi heyvanlarla yanaşı, balıq fiqurları da işlənmişdir [2, s.20].




**Tunc kəmərlər. 1-3,5. Gədəbəy; 4. Qazax.**

Arxeoloji qazıntılar zamanı müxtəlif materiallardan (mis, tunc, dəmir, qızıl, gümüş, bürünc, şüşə, gil) hazırlanmış və döymə, tökmə, yonma, burma, lehimləmə, bəndetmə, zərbetmə kimi müxtəlif texnologiyalarla yaradılmış çoxsaylı bəzək nümunələri aşkar edilmişdir. Bu bəzəklərə sırğa, üzük, bilərzik, sinəbənd, asma möhür, medalyon, sancaq və kəmər-toqqalar daxildir. Bu tapıntılar orta əsr bədii sənətkarlıq səviyyəsi haqqında geniş təsəvvürlər formalaşdırır [6, s.11-48; 6, 89-103; 6, s.296-299; 6, s.67-76; 6, s.175-209].

XVII əsrdə Azərbaycanda zərgərlik sənətinin inkişaf səviyyəsi barədə M.X.Heydərov Avropa və türk səyyahlarının məlumatlarına əsaslanaraq bildirir ki, müxtəlif zinət və bəzək

əşyaları orta əsr Azərbaycan cəmiyyətində, xüsusilə əyanlar və varlı tacirlərin gündəlik həyatında geniş yer tutmuşdur. Bu tələbat nəticəsində zərgərlik məhsulları satan dükanların xüsusi cərgələri formalaşmışdır. Təbriz və Ərdəbil şəhərlərində ən bahalı və incə zərgərlik nümunələri bu cür tağbəndli zərgər dükanlarının yerləşdiyi sənət cərgələrində təqdim olunurdu. Həmin dövrdə belə sənət cərgələrinə Şamaxı şəhərində [3, s.87-88], XIX-XX əsrin əvvəllərində Bakı şəhərində rast gəlinirdi. Geyimlərə xüsusi yaraşıq verən bəzək məmulatlarının hazırlanması və satışı XVIII-XIX yüzilliklərdə yüksək xətlə inkişaf etmişdir. XIX yüzilliyin 80-ci illərində Qazax qəzasının Şəmşəddil sahəsində 3, Zəyəm stansiyasında 2 güşəbənd fəaliyyət göstərdiyi məlumdur [8, s.172].

XIX-XX əsrin əvvəllərində Azərbaycanda metaldan müxtəlif formalı və bəzəkli məişət əşyaları, eləcə də zinət əşyaları hazırlayırdılar. Hərçənd metalişləmə sənəti ümumilikdə ciddi böhran keçirirdi, zərgərlik ənənəvi üsullar əsasında inkişafını davam etdirirdi. Əvvəlki dövrlərdə Azərbaycan qadınlarının zövqlə istifadə etdiyi üzük, sırğa, bilərzik, sinəbənd, kəmər və bu kimi əşyalar yenə də populyar idi. Dəmirçilik və misgərliyə nisbətən, zərgərlik sənəti əsasən şəhərlərdə daha geniş yayılmışdı. Azərbaycan zərgərləri, sadə və dövr üçün primitiv sayılan alətlərdən istifadə etmələrinə baxmayaraq, çox yüksək keyfiyyətli əsərlər yaradır və digər ölkələrin zərgərlərindən geri qalmırdılar. 1902-ci ildə Tiflisdə keçirilmiş sənaye işçilərinin I qurultayına aid sənəddə qeyd olunur ki, bu ustaların əksəriyyəti savadsız və kasıb olsalar da, sənətkarlıq sahəsində avropalı həmkarlarını geridə qoymuşlar. Onların hazırladıqları məmulatlar öz bədii gözəlliyi və estetikası ilə insanları heyrətləndirirdi. Avropada istifadə edilən maşınlar və digər qurğular burada mövcud deyildi. Hazırlanan məhsullar tamamilə bacarıqlı və əziyyətli əllərin yaratdığı zəhmət əsəri idi [2, s.128].

Nəticə. Qazax rayonu Azərbaycanın zərgərlik sənətinə mühüm töhfələr verən bölgələrdən biridir. Burada aşkar edilən tunc bilərziklər, daş qoşmalı zinət əşyaları və naxışlı kəmərlər qədim dövrdən başlayaraq bu sənətin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Qazax ustalarının filigran, daş qoşma və milli ornamentlər kimi texnikaları bölgəyə məxsus zəngin mədəni irsi əks etdirir. Bu tapıntılar Qazaxın zərgərlik sənətindəki xüsusi yerini və Azərbaycanın mədəni kimliyindəki əhəmiyyətini təsdiqləyir.

## ƏDƏBİYYAT


1. Baxşəliyev Vəli. Azərbaycan Arxeologiyası. I cild, Bakı, 2006. S.200-201
2. Əfəndi R. Azərbaycan incəsənəti. B., Şərq-Qərb, 2007.160 s.
3. Гейдаров М.Х. Ремесленное производство в городах. Азербайджана в XVII в. Баку, 1967, с.87-88.], XIX-XX əsrin əvvəllərində Bakı şəhərində rast gəlinirdi. [145. Е.Марков. Россия в Средней Азии: Очерки путешествия по Закавказьо, Туркмении, Бухаре, Самаркандской, Ташкентской и Фарганской областим Каспийскому морю и Волге, т.1. Побережья Кавказа. VII татарская столица. СПб., 1901, с.115
4. Müseyibli Nəcəf, Nəcəfov Şamil. Zəyəmçay nekropolu s.82 "Elm və təhsil" Bakı-2019
5. Rəcəbova B.Ə. Azərbaycanın orta əsr qadın bəzəkləri (IV-XIII əsrlər). Bakı, 2000, s.3
6. Rəcəbova B.Ə. Göstərilən əsər, s.11-48; F.İbrahimov. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti (IX-XIII əsrlər), Bakı, 1988, s.89-103; О.Ш.Исмизаде. О ювелирной ремесле древней Кавказской Албании. МКА.. т. VII, Баку, 1973, с.296-299; Ф.В.Кадиров. О развитии ювелирного ремесла в Кабале. Изв. АН Азерб. ССР (сер истории, философии и права), 1983, №2, с.67-76; Ə.İ.Novruzlu. Azərbaycanın orta əsr sənətkarlığı. Bakı, 1997; yenə onun: Позднесредневековое ремесло Азербайджана (XIV-XVII в.). Баку, 2000, с.175-209.]
7. Rzayev N. Möcüzəli qərinələr. Bakı 1984, s.46-47, 51-53; yenə onun: Əcdalarımızın izi ilə. Bakı, 1992, s.63-64

8. Sumbatzadə Ə.S. ЦГИА Азерб. ССР, ф.43, оп.2, д.889, ал.3-44; yenə orada, оп.4, д.2707, лл.3-31 Göstərilən əsər, s.172.
9. Şamsadinskaya Mehriban. "XIX-XX əsr Azərbaycan zərgərliyində ornamental ənənələr" Mədəniyyət Dünyası Elmi-nəzəri məcmuə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, XXXVII buraxılış, Bakı, 2019. 95-99

УДК 902

*Жала Абульфат кызы Ахмедова*
*Гянджинское отделение НАНА*

ИСТОРИЯ РАЗВИТИЯ ЮВЕЛИРНОГО ИСКУССТВА
В ГАЗАХСКОМ РАЙОНЕ
*РЕЗЮМЕ*

*Ключевые слова:* Газахский район, декоративно-прикладное искусство, технологии ювелирного дела, бронзовые браслеты, пояса

Ювелирное искусство в Азербайджане развивалось с древних времён и занимает важное место в культурном наследии народа. это искусство выделяется не только изготовлением украшений, но и произведениями, отражающими эстетические чувства, образ жизни и мировоззрение народа. происхождение ювелирного искусства в Азербайджане относится к XI-XII векам до нашей эры. Ювелирное искусство было широко распространено в таких городах, как Баку, Гянджа, Газах, Ширван, Шеки и Нахчыван. мастера этих регионов изготавливали высококачественные украшения как для местных потребителей, так и для экспорта. Газахский район играл важную роль в развитии ювелирного искусства. традиция ювелирного дела в Газахе сформировалась с древних времён, создавая богатое культурное наследие. Уже с эпохи Кавказской Албании этот регион был известен обработкой металлов и ювелирными изделиями. здесь сложился синтез разных культур и художественных стилей. Ювелирные изделия, найденные в древних поселениях Сарытепе и Бабадервиш в Газахском районе, особенно украшения из бронзы и полудрагоценных камней, подтверждают древнюю историю этого искусства. бронзовые браслеты с головами животных, найденные в Сарытепе, являются примерами высокого уровня развития ювелирного мастерства. Кроме того, различные украшения и бронзовые изделия, обнаруженные в поселении Бабадервиш, подтверждают богатые традиции ювелирного искусства этого региона.

UDC 902

*Jala Abulfat Ahmadova*
*Ganja Branch of ANAS*

THE HISTORY OF JEWELRY MAKING DEVELOPMENT IN THE GAZAKH REGION
*SUMMARY*

*Key words:* Gazakh region, decorative-applied arts, jewelry technologies, bronze bracelets, belts

Jewelry art in Azerbaijan has developed since ancient times and holds a significant place in the nation's cultural heritage. This craft stands out not only for creating ornaments but also for producing artistic works that reflect the people's aesthetic sense, lifestyle, and

worldview. The origins of jewelry art in Azerbaijan date back to the $11^{th}$-$12^{th}$ centuries BC. Jewelry art was widely practiced in cities like Baku, Ganja, Gazakh, Shirvan, Shaki, and Nakhchivan. The tradition of jewelry-making in Gazakh evolved from ancient times, contributing to the region’s rich cultural heritage. During the Caucasian Albania period, the region was renowned for its metalworking and jewelry craftsmanship. This area became a synthesis of various cultures and artistic styles. Finds from Gazakh, such as jewelry from the ancient settlements of Saritepe and Baba Dervish, highlight the craft's ancient history. These include ornaments made of bronze and semi-precious stones. The bronze bracelets with animal-head designs found in Saritepe are remarkable examples showcasing the advanced craftsmanship of the time. Similarly, the decorative items and bronze ornaments discovered in Baba Dervish demonstrate the region’s rich jewelry-making traditions.

***Daxil oldu: 07.02.2025-ci il***